**UOT 373.3/.5**

***Akif Məmməd oğlu Məmmədov***
*Lerik rayonu, Qələbin kənd ümumi orta məktəbin ibtidai sinif müəllimi*
https://orcid.org/ 0000-0002-8897-7195

# TƏLİM PROSESİNDƏ MÜƏLLİM- ŞAGİRD MÜNASİBƏTLƏRİNİN PEDAQOJİ ƏMƏKDAŞLIQ ƏSASINDA QURULMASI

***Акиф Мамед оглы Мамедов***
*учитель начальных классов общеобразовательной школы села Галабин Лерикского района*

# ПОСТРОЕНИЕ ВЗАИМООТНОШЕНИЙ УЧИТЕЛЬ-УЧЕНИК НА ОСНОВЕ ПЕДАГОГИЧЕСКОГО СОТРУДНИЧЕСТВА В УЧЕБНОМ ПРОЦЕССЕ

***Akif Mammad Mammadov***
*primary school teacher of Galabin village general secondary school, Lerik district*

# BUILDING TEACHER-STUDENT RELATIONSHIPS BASED ON PEDAGOGICAL COOPERATION IN THE EDUCATIONAL PROCESS

**Xülasə.** Məqalədə təlim prosesində ən vacib amillərdən olan müəllim-şagird münasibətlərindən, xüsusilə ibtidai siniflərdə bunun əhəmiyyətindən danışılır.

Təlim prosesinin bütün mərhələlərində müəllim-şagird münasibətlərinin yaranmasında müəllimlər üçün vaçib olan pedaqoji qabiliyyətlərdən, onların əsas xüsusiyyətlərindən bəhs olunur. Müəllim-şagird münasibətlərinin yüksək olması üçün və keyfiyyətli nəticələrin əldə olunmasında dialoji mədəniyyətin prinsiplərinin əhəmiyyəti qeyd olunur. Yeni təhsil sistemində müəllim-şagird münasibətlərinin düzgün yaradılmasında pedaqoji əməkdaşlığın vacibliyi haqqında geniş məlumat verilmişdir.

***Açar sözlər:*** *müəllim-şagird münasibətləri, təlimdə vacib olan qabiliyyətlər, dialoji mədəniyyət, pedaqoji əməkdaşlıq*

**Резюме.** В статье рассматриваются отношения учитель-ученик, являющиеся одним из важнейших факторов в процессе обучения, особенно в начальных классах. На всех этапах процесса обучения обсуждаются педагогические умения и их основные черты, важные для педагогов в формировании отношений «учитель-ученик». Подчеркнута важность принципов диалогической культуры для высоких отношений учитель-ученик и достижения качественных результатов. Была предоставлена обширная информация о важности педагогического сотрудничества в надлежащем налаживании отношений между учителем и **учеником в новой системе образования.**

***Ключевые слова:*** *отношения учитель-ученик, навыки, важные в обучении, диалогическая культура, педагогическое сотрудничество*

**Summary.** The article discusses the teacher-student relationship, which is one of the most important factors in the learning process, especially in the primary grades. At all stages of the learning process, the pedagogical skills and their main features that are important for teachers in the formation of teacher-student relations are discussed. The importance of the principles of dialogic culture for the high teacher-student relations and the achievement of quality results is emphasized. Extensive information was provided on the importance of pedagogical cooperation in the proper establishment of teacher-student relations in the new education system.

***Key words:*** *teacher-student relations, skills important in training, dialogical culture, pedagogical cooperation*

Azərbaycan Respublikasında Təhsil sahəsində İslahat Proqramının qəbul olunmasından sonra təlim prosesində yeni yanaşmalar dövrü başlandı. İslahat Proqramının tələbləri baxımından yeni bir quruluşun – cəmiyyətin formalaşması və müasir təfəkkürün formalaşması zərurəti yarandı. Təhsildə bir sıra yeni yanaşmalar meydana gəldi. Demokratik təhsil şəraitində belə yeni yanaşmalardan biri də müəllim-şagird münasibətlərinin formalaşması oldu. Bu həm də öz-özlüyündə yeni bir pedaqoji məsələni – müəllim-şagird münasibətlərinə yenidən baxılmasını və onun yeni müstəvidə qurulmasını meydana çıxardı.

Yeni təhsil siyasətinə və fəal təlimə görə Azərbaycan təhsilində "demokratikləşdirmə", "humanistləşdirmə","inteqrasiya", "diferensiallaşdırma", "fərdiləşdirmə", "humanitarlaşdırma" kimi Təhsil İslahatının prinsiplərinə əsaslanaraq, şagirdlərin bir şəxsiyyət kimi formalaşmasında müəllim-şagird münasibətləri çox önəmlidir.

Yeni Təhsil Qanunun tələbləri baxımından müasir təlim şəraitində müəllimin ənənəvi fəaliyyətində dəyişikliklər baş verib. Onun funksiyası dəyişib, pedaqoji fəaliyyətində yeni mövqe yaranıb. Yeni şəraitdə "müəllimin mövqeyi – bələdçi" (fasilitator), aparıcı (istiqamət verən) mövqeyidir. Şagird isə tədqiqatçıdır. Fəal təlim prosesində şagirdləri biliklərə aparan yolda müəllimin bir bələdçi kimi əsas funksiyalarından biri də müəllim-şagird münasibətini günün tələbləri baxımından qurmasıdır. Əslində bu, müəllim liderliyinin yeni bir formasıdır. Bu liderlik müəllimlə şagirdin təhsilin məqsədinə nail olmağa yönəldilmiş birgə fəaliyyətinə əsaslanır. Belə olduğu təqdirdə müəllim nüfuz sahibi kimi sinifdə özünü şagirdlərdən yüksəkdə tutmur. Əksinə, müəllim sistemli, ardıcıl və məqsədyönlü şəkildə şagirdlərlə əməkdaşlıq edir, problemli vəziyyəti təşkil edir, tədqiqat məqsədlərinin qoyulmasında şagirdlərə istiqamət verir, bunların həllində metodik kömək göstərir, biliklərin əldə edilməsi və mənimsənilməsi yollarını öyrədir. Şagird isə müəllimin istiqamətinə əsasən fəaliyyət göstərir. O, fəaliyyətə məcbur olunmur, sadəcə təhrik edilir. Onun mövqeyi axtarış və kəşf edən, tədqiqatçı xarakteri daşıyır. Ona görə də müəllimin istiqaməti üzrə şagird kiçik tədqiqatlara qoşulur, araşdırmalar aparır, konkret nəticələrə gəlir. Şagird gəldiyi nəticələri qiymətləndirməklə bir daha bunlara nail olduğuna əmin olur.

Göründüyü kimi, istər müəllimin, istərsə də şagirdin fəaliyyəti subyektlərin fəaliyyəti kimi əməkdaşlıq xarakteri daşıyır. Yəni ənənəvi təlimdə əsas prinsip kimi qəbul olunan subyekt – obyekt münasibətindən subyekt – subyekt münasibətinə keçilmişdir. Bu münasibətlər müasir təhsili, məktəbi xarakterizə edən, onun humanist keyfiyyətini üzə çıxaran əsas əlamətdir.

Yeni təhsil sistemində müəllim-şagird münasibətləri dialoji mədəniyyətin prinsiplərinə söykənir. Başqa sözlə, bu münasibətlərin əsasında humanist prinsipin tələbləri dayanır. Belə tələblər təlim prosesinin psixopedaqoji əsası kimi xüsusi əhəmiyyət daşıyır. Azərbaycanın görkəmli psixoloqu, mərhum prof. Ə.Ə. Əlizadə bu məsələdən bəhs edərkən həm şəxsiyyət, həm də dialoji mədəniyyətin tələbləri barədə belə qənaətə gəlmişdir: "Obyekt mahiyyətcə şəxsiyyət deyil, insan deyil. İnsan ancaq subyekt kimi, şəxsiyyət kimi dialoqa girə bilər". Bu o deməkdir ki, dialoq məkanına daxil olmaq üçün aşağıdakı məqamlar əsasdır:

– insan münasibətləri mənəvi ölçülərə söykənməlidir;

– adamlar bir-birini şəxsiyyət kimi qavramalıdırlar;

– dialoq birgə əməkdaşlıq, birgə yaradıcılıq şəraitində olmalıdır".

Doğrudan da, dialoji mədəniyyət üçün ilkin şərt insanlığın anlaşılan və qarşılıqlı başa düşülən mənəvi prinsipləridir. Bu prinsiplər bütövlükdə insanın həyat fəaliyyətinin tənzimlənməsində həlledici rol oynayır. Dialoji mədəniyyətdə müəllim və şagirdlərin bir-birlərini bir şəxsiyyət kimi qəbul etməsi də başlıca şərtdir. Bu, onların bir-birini problemi olan, onu həll etməyə gücü, qüdrəti çatan, xüsusi bilik, bacarıq və qabiliyyətli şəxs kimi qəbul etməsi deməkdir. Belə ünsiyyət müəllim-şagird münasibətinin təlim prosesində əhəmiyyətini daha da artırır.

Müəllim-şagird münasibətin yaranmasında birgə fəaliyyətdə əməkdaşlığın yaranmasının zəruriliyi xüsusi vurğulanmalıdır. Müəllim-şagird fəaliyyətində əməkdaşlıq yeni düşüncə tərzinə əsaslanan yaradıcılıq aləminin genişlənməsinə şərait yaradır. Bu, çox əhəmiyyətli və qeyri-adi bir hadisə kimi, şagirdlərdə birgə fəaliyyətə, eləcə də təlim fəaliyyətinə böyük maraq doğurur.

Müəllim-şagird münasibətlərinin düzgün qurulması, ilk növbədə, müəllimlərdə bir sıra qabiliyyətlərin olmasından çox asılıdır. Xüsusən, ibtidai siniflərdə fəaliyyət göstərən müəllimin müasir dövr üçün xarakterik olan qabiliyyətləri müəllim-şagird münasibətlərində son dərəcə önəmlidir. Bildiyimiz kimi, pedaqoji qabiliyyətlər müəllimin fərdi keyfiyyətləridir. Onları aşağıdakı kimi təsnif etmək olar: təşkilatçılıq qabiliyyəti;

- təlim (öyrətmə) qabiliyyətləri;
- perseptiv qabiliyyətlər;
- kommunikativ (ünsiyyət) qabiliyyətləri;
- suqqestiv (təlqinedici) qabiliyyətlər;
- tədqiqatçılıq qabiliyyəti;
- elmi-idrakı qabiliyyətlər.

Bu qabiliyyətlər zaman keçdikcə dəyişə, tələblərin sayı arta və ya azala bilər. Lakin başlıca şərtlərdən biri qabiliyyətlərin zərurilik baxımından bacarıqlara çevrilməsi və bacarıqlardan müəllim fəaliyyətində düzün istifadə olunmasıdır. Nəzərə alınmalıdır ki, sinifdə təhsil alan şagirdlərin hər birinin fərdi və özünəxas xüsusiyyətləri var. Ona görə də müəllim dərs dediyi siniflərdə müəllim-şagird münasibətlərini şagirdlərin yaş səviyyəsinə uyğun olaraq qurmalıdır.

Müəllimin bacarıqları özlüyündə lazım olması baxımından eyni səviyyədə əhəmiyyətli olsa da, müxtəlif zamanda hər hansı biri digərinə nisbətən daha önəmli görünə bilər. Bu yalnız tədqiqatçıların dövrün tələbindən doğan yanaşma tərzində ifadə olunur. Məsələn, humanist və demokratik cəmiyyətin qurulduğu bir zamanda müəllimin ilkin keyfiyyəti kimi kommunikativ (ünsiyyət) bacarıqları daha çox əhəmiyyət daşıyır. Şagirdlərinin təlim marağına səbəb olan müəllimlər kommunikativ imkanlarından istifadə edən müəllimlərdir. Belə müəllimlər şagirdlər tərəfindən daha da çox sevilir. Deməli, şagird kollektivini təlim prosesinə hazırlamaq, onu ümumi fəaliyyətin məntiqinə tabe etmək üçün ən yaxşı vasitə kommunikativ (ünsiyyət) bacarıqlardır. Məlumdur ki, şagirdlər ünsiyyətcil, qayğıkeş müəllimlərlə daha yaxından əməkdaşlıq edirlər. Ünsiyyət müəllim-şagird münasibətində ən əsas amillərdən biridir. Ünsiyyət ibtidai sinif müəllimləri üçün xüsusilə vacib qabiliyyətlərdən biridir. Ona görə ki, ibtidai sinif şagirdləri öz müəllimini qəbul etməsə onu təlim prosesinə cəlb etmək çox çətin olur.

Müəllimin fəaliyyətində aparıcı fərdi keyfiyyətlərdən biri də tədqiqatçılıqdır. Bu günün müəllimi üçün bu bacarıq daha da önəmlidir. Çünki müəllim özü tədqiqatçı olmalıdır ki, qarşısındakı şagirdi də bu istiqamətdə inkişaf etdirə bilsin. Yeni təhsil siyasətində müəllim və şagirdlərin funksiyalarında dəyişikliklər yaranmaqdadır. Müəllim bütövlükdə dərsin sahibi, təşkil edəni olduğundan bütün hallarda şagirdlərin təlim fəaliyyətini istiqamətləndirən, onları düz yola yönəldən bir şəxs kimi çıxış edir, fənn üzrə reallaşdıracağı standartlara əsaslanaraq məqsədlərini müəyyənləşdirir. Məqsədlərini həyata keçirmək üçün fəaliyyətini layihələndirir, konkret plan qurur. Bu zaman reallaşdıracağı məzmun standartlarını, il ərzində fəaliyyətinin məzmununu, gözlənilən nəticələri, üsul və vasitələri, qiymətləndirmə mexanizmlərini müəyyənləşdirir. Gündəlik fəaliyyətə gəldikdə isə müəllim hər dərs üçün orijinal bir sistem hazırlayır. Məhz bu prosesdə də mütləq olaraq müəllim-şagird münasibəti nəzərə alınır, ən zəif müəllim belə özünün sistemini düzgün formalaşdırmağa, reallaşdırmağa çalışır.

Bu günün müəllimi sərbəst bir fəaliyyət göstərən, yaxud başqasının göstərişlərini yerinə yetirən bir şəxs kimi çıxış etmir. O, daima texnoloji araşdırmalar aparan, özünün və başqalarının fəaliyyətinə yaradıcı yanaşan, fəaliyyətini şagirdlərinin nailiyyətləri ilə qiymətləndirən yaradıcı mütəxəssis kimi fəaliyyət göstərir. Bu mənada tədqiqatçılıq müəllimin zəruri bacarıqlarından biri kimi dəyərləndirilir və onun formalaşdırılması istiqamətində iş aparılması məqsədəuyğun hesab edilir. Müəllimin tədqiqatçılıq bacarığının önəmli hesab edilərək digərlərindən fərqləndirilməsi müasir dövrdə həyata keçirilən demokratik və humanist təhsil siyasətindən irəli gəlir. Demokratik və humanist təhsilin qurulmasında keyfiyyətin idarə olunması mexanizmi təhsil müəssisələrinin, eləcə də müəllimlərin fəaliyyətində yaradıcılığın üstün yer tutmasına xüsusi önəm verir. Standart nəticələrə çatmaq üçün strategiyaların seçilməsi və ya hazırlanmasında məsuliyyətli yanaşma tərzi nümayiş etdirməyi, nəzərdə tutulmuş hədəflərə çatmağı tələb edir.

İstər kommunikativ, istərsə də tədqiqatçılıq bacarıqlarının yaranması üçün müəllimin elmi-idraki bacarıqlara yiyələnməsi daha da önəmlidir. Başqa formada demiş olsaq, müəlli-

min akademik və pedaqoji-psixoloji hazırlığı onun kommunikativ və tədqiqatçılıq bacarıqlarının yaranmasının təminatçısıdır. Ona görə də respublikamızda həyata keçirilən yeni təhsil siyasətində müəllim şəxsiyyətində vacib olan bu bacarıqların, eləcə də bunlarla yanaşı, digərlərinin formalaşması məqsədi ilə zaman-zaman fəal təlim texnologiyalarını inkişaf etdirən təlim kursları təşkil olunur. Belə təlimlərdə iştirak etmək müəllimlərə fəal təlim şəraitini daha səmərəli təşkil və idarə etməkdə çox kömək edir. Deməli, bu günün müəllimi hər zaman öz peşəkarlığını artırmalıdır.

Beləliklə, bu bacarıqlara istinad edə bilən müəllim məhz müəllim-şagird münasibətlərinin düzgün qurulmasına nail olur.

Pedaqoji qabiliyyətlərə malik müəllim, təbii olaraq, planlaşdırdığı pedaqoji prosesi yeni prinsiplərin tələbinə uyğun olaraq demokratik şəraitdə qurmağa çalışır. Belə şərait isə, öz növbəsində, şagird fəallığına imkan verir. Şagird müəllimin istiqamətverici tövsiyələri, göstərişləri əsasında potensial imkanlarını səfərbər edərək təlim prosesində sərbəst fəaliyyət göstərir, müəllimin ona bəslədiyi hörmət və ehtiramdan bəhrələnərək daha da yüksək keyfiyyət göstərməyə çalışır.

Müəllim-şagird münasibətlərinin yüksək olması keyfiyyətli nəticələrin əldə olunması ilə müəyyənləşir. Bu isə bilavasitə real prosesdə meydana çıxır. Real proses həyata keçirilən pedaqoji prosesdir. Müəllim-şagird münasibətlərinin öyrənmə-öyrətmə mexanizmi məhz bu prosesdə meydana çıxır. Həm müəllimlər, həm də şagirdlər özlərinin fəaliyyət potensialını bu şəraitdə daha aydın nümayiş etdirirlər. Real proses müəllim-şagird əməkdaşlığının bir müstəvidə olmasını, təlimin səmərəliliyi istiqamətinə yönəlməsini, hər iki tərəfin qarşılıqlı münasibətini tələb edir.

Yeni pedaqoji prosesdə müəllim-şagird münasibətləri qarşılıqlı əməkdaşlıq baxımından qiymətləndirilsə də, burada şagirdlərin fəallaşdırılması daha qabarıq nəzərə çarpır. Onlar müasir dövrdə pedaqoji prosesdə subyekt kimi fəaliyyət göstərirlər. Təlim prosesində şagird tədqiqatçılığa cəlb olunur, mövzu ətrafında araşdırmalar aparır, öyrəndiklərini tətbiq edir, müqayisə və təhlillər yolu ilə fakt və hadisələri məntiqi təfəkkürə əsaslanaraq qiymətləndirirlər. Şagirdin təlim prosesində mühakimə yürütməsi, fikirləşməsi, müstəqil nəticə çıxarması, əldə etdiyi məsələləri yaradıcı tətbiq etməsi onun ən müsbət cəhətlərindəndir. Müasir dərsi bunlarsız təsəvvür etmək çətindir.

Yuxarıda qeyd olunduğu kimi, müəllim və şagirdlərin fəaliyyətindəki özəlliklər onların arasındakı münasibətlərin yeni məzmunda qurulmasını son dövr pedaqoji ədəbiyyatlarda göstərildiyi kimi, "əməkdaşlıq münasibəti", "əməkdaşlıq pedaqogikası" kimi adlandırmaq olar. Mahiyyət etibarı ilə bu münasibətlərin əsasında qarşılıqlı anlaşma və demokratik xarakterli ünsiyyət, biz sözlə, dialoji mədəniyyət dayanır. Hər şeydən əvvəl, vacib olan problemin həll edilməsidir. Müəllim və şagirdlər bütün fəaliyyətlərini bu məqsədə yönəldirlər. Məqsəd öyrədən və öyrənən tərəfləri sıx birləşdirmək, onlar arasındakı əməkdaşlığı daha da genişləndirməkdir.

Müəllim-şagird münasibətlərindəki qarşılıqlı fəaliyyət mahiyyət etibarı ilə müasir xarakterli yeni bir təlim şəraitinin meydana çıxması ilə müşayiət olunur. Bu şəraitdə öyrənən xarakterini dəyişir. Yeni təhsil quruculuğunda bu cür yanaşma fəal öyrənmə (təlim) adlandırılır. Prof. A.O. Mehrabov haqlı olaraq qeyd edirdi: "Fəal öyrənmə təlim prosesində xüsusi yer tutur. O, şagirdlərə gələcək peşələrində, fəaliyyətlərində, şəxsi və ictimai həyatlarında məqsədlərinə çatmaqda, kamil insan kimi formalaşmaqda kömək edən zəruri öyrənmədir. Göründüyü kimi, bu prosesin faydalılığı şagirdlərin idrak fəallığının yüksəlməsində, problemlərin həlli yolunun tapılmasında axtarışlarda, kəşflərdə özünü göstərir. Hər bir nailiyyət özünün müsbət nəticələri ilə xüsusi əhval-ruhiyyə yaradır və şagirdlərin yüksək sevincinə səbəb olur, təlim marağının artmasına təsir göstərir".

Müəllim-şagird arasında qarşılıqlı fəaliyyətin yaranması səmərəli öyrənmə prosesinin formalaşması ilə nəticələnir. Belə fəaliyyət ənənəvi təlim prosesinə məxsus bilikyönlü təlimdən şəxsiyyətyönlü təlimə gətirib çıxarır ki, bunun da ən əsas səbəbi əməkdaşlığın normal olmasıdır. Bu zaman müəllim-şagird arasında işgüzar bir əlaqə formalaşır, hər kəs təbii olaraq qarşısına qoyduğu məqsəd üçün çalışır.

Müəllim-şagird arasında qarşılıqlı fəaliyyətin yaranması həm də ənənəvi olaraq məktəblə valideyn arasında əlaqələrin yeni məzmunda qurulmasına şərait yaradır. Belə əlaqələrin ibti-

dai sinif şagirdlərinin valideynləri ilə yaradılması xüsusilə vacibdir. Valideynlər məktəbdə təlim prosesi və övladlarının gündəlik təlim fəaliyyəti ilə daha yaxından maraqlanmağa, onların təhsil prosesinə nüfuz etməyə imkan tapırlar. Müəllimlərin valideynlərlə əlaqələrinin yeni formaları yaranır. Valideynlər uşaqlarının təlim fəaliyyətinin sadəcə seyirçisi deyil, bilavasitə iştirakçısına çevrilir, onların problemləri ilə daha yaxından tanış ola bilirlər.

Müəllim-şagird münasibətlərinin düzgün təşkili təlim prosesini daha da səmərəli və rəngarəng edir. Yuxarıda qeyd olunanlara istinadən demək olar ki, müəllim-şagird münasibətində ən vacib şərt olan pedaqoji əməkdaşlıq vasitəsi ilə müəllim və şagird fəaliyyətinin dinamikasını artırmaq mümkündür.

**Problemin aktuallığı.** Bu gün fəxrlə demək olar ki, respublikamızda demokratik təhsil quruculuğu dövründə müəllim-şagird arasında qarşılıqlı fəaliyyət şəraiti yaranmışdır. Təhsildə demokratik ənənələr gücləndikcə bu fəaliyyət daha da artar, gələcəyə uğurla addımlayan əsl şəxsiyyətlər formalaşar. Təlim prosesində müəllim-şagird münasibətini pedaqoji əməkdaşlıq əsasında qura bilən müəllim təhsildə daha yüksək nəticələr əldə edər.

**Problemin elmi yeniliyi.** Müəllim-şagird arasında qarşılıqlı fəaliyyətin yaranması həm də ənənəvi olaraq məktəblə valideyn arasında əlaqələrin yeni məzmunda qurulmasına şərait yaradır. Belə əlaqələrin ibtidai sinif şagirdlərinin valideynləri ilə yaradılması xüsusilə vacibdir.

**Problemin praktik əhəmiyyəti.** Təlim prosesində şagird tədqiqatçılığa cəlb olunur, mövzu ətrafında araşdırmalar aparır, öyrəndiklərini tətbiq edir, müqayisə və təhlillər yolu ilə fakt və hadisələri məntiqi təfəkkürə əsaslanaraq qiymətləndirirlər.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı. – Bakı, – 1999.
2. Veysova, Z. Fəal / İnteraktiv təlim: müəllimlər üçün vəsait. Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu (UNİCEF), 2007).
3. Əlizadə, Ə.Ə. Yeni pedaqoji təfəkkür (psixopedaqoji araşdırmalar. – Bakı: Adiloğlu, – 2001.
4. Mehrabov, A.O. Azərbaycan təhsilinin müasir problemləri. – Bakı: Mütərcim, – 2007.
5. Paşayev, Ə.X. Pedaqogika. Yeni kurs. / Ə.X. Paşayev, F.A. Rüstəmov – Bakı: Nurlan, – 2007.
6. Allahverdiyeva, F. Pedaqogika: Dərs vəsaiti / F. Allahverdiyeva, S. Tağıyeva. – Bakı: Elm və Təhsil, – 2018.


**E-mail:** memmedov@mail.ru

**Rəyçilər:** *ped. ü. fəls. dok.* **S. Tağıyeva,**
*ped. ü. fəls. dok.* **A. Bəkirova**
**Redaksiyaya daxil olub:** 31.03.2022.